# Əli Kərim poeziyasının cazibəsində

***Axtarıram mən səni, arayıram mən səni.***
***Soruşuram gözümlə ötüb keçəndən səni.***
***Axtarıram kitabda, arayıram həyatda,***
***Bilmirəm nə boydasan, nə görkəmdə, nə adda…***




Bu siqlətli misraların müəllifi gənc yaşında həyatdan köçmüş, 50-60-cı illər poeziyamızın parlaq istedad sahibi, şeiriyyata yeni yanaşma, bənzərsiz üslub gətirmiş unudulmaz şairimiz Əli Kərimdir. Əgər misal gətirdiyimiz şeir parçasını özünə aid etsək, deyə bilərik ki, Əli Kərim elə özü boyda uca, özü qədər görkəmli, özü qədər adlı-sanlı bir şəxsiyyətdir.

Hər zaman yaşayan, sevilən, oxunan Əli Kərim. Mərhum aktyorumuz Səməndər Rzayevin dilindən "Bulaq" verilişində onun təsirli şeirlərinə qulaq asmaq necə də gözəl idi!

Srağagün Beynəlxalq Muğam Mərkəzində Əli Kərim işığına toplaşanlar xatirə gecəsindən hədsiz zövq aldılar. bir daha onun aurasına düşdülər, poeziya qanadlarında pərvaz etdilər və həyatın gözəlliklərinə yenidən vuruldular. Onun yaradıcılığının pərəstişkarları xatirə gecəsində şairi layiqincə andılar. Eyni zamanda, Milli Məclisin Mədəniyyət komitəsinin dəstəyi ilə görkəmli şairin azərbaycanca, Türkiyə türkcəsində və rusca çıxmış kitablarının təqdimatı hər kəsə unudulmaz təsir bağışladı.

MM-in Komitə sədri Qənirə Paşayeva XX əsr Azərbaycan şeirinin görkəmli nümayəndəsi Əli Kərimin yaradıcılığından, onun ədəbiyyat tariximizdəki yerindən bəhs edərək bildirdi ki, şairi hər zaman sevdirən onun müasir dünyagörüşüdür. Əli Kərim Azərbaycan şeirinin miqyasını, hüdudlarını genişləndirən poeziya dühalarındandır: O 54 il öncə dünyasını dəyişib. Rəhmətlik böyük şairimiz Rəsul Rza deyirdi ki, Əli Kərim haqqında keçmiş zamanda danışmaq mümkün olmur. Ramiz Rövşənə görə isə Əli Kərim son 50 ildə Azərbaycan ədəbiyyatının ən böyük itkisidir. Bəli, Əli Kərim bizim uşaqlığımızın, yeniyetməliyimizin, gəncliyimizin və indimizin ən sevimli şairləri sırasında qərar tutub. Hər zaman sevilib, oxunub və bu gün də belədir. O, cəmi 38 il yaşadı, amma, ölümündən sonra əbədi ömrünə qovuşdu…

Sonra mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Əli Kərim timsallı ədəbiyyat nümayəndələrinin daim qəlblərdə yaşadığını qeyd etdi. AYB sədrinin müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid, filologiya elmləri doktoru, ədəbiyyatşünas Vaqif Yusifli, BAMF prezidenti Umud Rəhimoğlu və Beynəlxalq "ALAŞ" Ədəbiyyat Mükafatı laureatı Əkbər Qoşalı da şairin yaradıcılığından söhbət açaraq, onun Azərbaycan poeziyası, ədəbiyyatı üçün müstəsna xidmətlərindən söhbət açıblar. Natiqlər qeyd etdilər ki, şairin "İki sevgi", "Həmişə səfərdə", "Qızıl qanad", "Qaytar ana borcunu", "Seçilmiş əsərləri", "Qayıt" və başqa kitabları indi də oxucuların sevərək oxuduğu ədəbi nümunələrdəndir.

Daha sonra şairin oğlu – filologiya elmləri doktoru, mətnşünas alim, UNESCO-nun Dünya yaddaşı proqramı üzrə Azərbaycan Milli Komitəsinin sədr müavini Paşa Əlioğlu tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirərək, atası ilə bağlı xatirələrini danışdı.

Tədbirin bədii hissəsində Əməkdar artist Ağalar Bayramov və bədii qiraət ustası Nadir Hüseynov şairin poeziyasından şeirlər səsləndirdilər.

***Anar TURAN,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 29 yanvar.- S.10.